

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 84 (24.221)

*12 may 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik




## Prezident İlham Əliyev “Total Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də “Total Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul edib.

Görüşdə SOCAR ilə “Total Energies” arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. “Abşeron” qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olundu.

Nikolas Terraz “Total Energies” şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirdi.

Söhbət zamanı ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpa olunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Heydər Əliyev Muzeyinin fəaliyyəti genişləndirilir



Ulu öndərin sağlığında onun adına yaradılan ilk muzey kimi tarixə düşən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi həm də öz unikallığı, dahi şəxsiyyətin haqqında çox nadir materiallarla, eksponatlarla kifayət qədər zənginliyi ilə seçilir. 2023-cü il “Heydər Əliyev İli”ndə muzeyə yerli və xarici qonaqlar tərəfindən ziyarətlərin çoxalması, eyni zamanda bu mədəniyyət müəssisəsinin görkəmli dövlət xadiminin irsinin qorunub-yaşadılması, xüsusilə gənc nəslə təbliği baxımından əhəmiyyətini xeyli artırıb. Ulu Öndərin zəngin və çoxşaxəli irsinin öyrənilib təbliğ edilməsindəki aktivliyini, zəngin fond eksponatlarını, müxtəlif səciyyəli elmi konfransların, seminarların, interaktiv dərslərin, görüşlərin təşkil edilib keçirildiyini və muxtar respublikanın həyatında müstəsna rolunu nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 10 may 2023-cü il tarixli Qərarı ilə Heydər Əliyev Muzeyinə “muxtar respublika” statusu verilib. 1999-cu il mayın 10-da 420 eksponatla fəaliyyətə başlayan, bu gün fondunda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən 5 mindən çox eksponatın qorunduğu muzey gələcəkdə öz fəaliyyətini daha da genişləndirəcək.

Qeyd edək ki, Heydər Əliyev Muzeyinə “muxtar respublika” statusunun verilməsinə görə muzey əməkdaşlarının aylıq vəzifə maaşlarına müəyyən məbləğdə əlavələr ödəniləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Ümummilli Liderin 100 illik yubileyi qeyd olunub



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi qeyd olunub, əlamətdar gün münasibətilə xidməti fəaliyyətində fərqlənmiş bir qrup ədliyyə işçisi mükafatlandırılıb.

Əvvəlcə Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində canlarından keçən şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edən ədliyyə naziri Daşqın Rəhimov vurğulayıb ki, dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra Ümummilli Liderin rəhbərliyi ilə ədliyyə orqanlarının hərtərəfli inkişafı üzrə köklü islahatlar aparılıb, nazirliyin cəmiyyətdə rolu və nüfuzu xeyli artıb. Ədliyyə Nazirliyi dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilib. Nazir dahi liderin təməlini qoyduğu məhkəmə-hüquq islahatlarının bu gün də uğurla davam etdirildiyini, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən hüquq sisteminin müasir çağırışlara uyğun inkişafı üzrə ardıcıl tədbirlərin görüldüyünü qeyd edib.

Nazir müavini, Penitensiar Xidmətin rəisi Emin Kazımov tədbirdə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində, ictimai-siyasi həyatındakı rolundan bəhs edib, Onun Azərbaycan xalqının inkişafındakı misilsiz xidmətlərindən danışıb. Emin Kazımov dahi rəhbərin cəza-icra siyasəti, ölüm hökmünün ləğv edilməsi və onun tarixi əhəmiyyəti barədə ətraflı çıxış edib.

Nazirliyin Qanunvericilik bölməsinin rəisi Ayaz Məhərrəmov Ümummilli Lider Heydər Əliyevin insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində gördüyü işlər, Onun tarixi nailiyyətləri barədə çıxış edib.

Sonra bir qrup ədliyyə işçisi mükafatlandırılıb. Ədliyyə nazirinin müvafiq əmrinə əsasən nazirliyin müxtəlif sahələrində xidmət aparan və xidməti fəaliyyəti fərqlənən əməkdaşları təltif olunub. Əməkdaşlar vəzifədə müddətdən əvvəl növbəti xüsusi rütbələrlə, eyni zamanda qiymətli hədiyyə və təşəkkürnamələrlə üzrə mükafatlandırılıblar.

Tədbirin sonunda Ulu Öndərin mənalı ömür yolu və Azərbaycanın dövlətçilik sistemində gördüyü işlərdən bəhs edən filmə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## *“Azərbaycanda gender bərabərliyinin təminatçısı Ulu Öndər Heydər Əliyev”* mövzusunda konfrans keçirilib



*Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının təşkilatçılığı ilə “Naxçıvan Saray” Kompleksində keçirilən konfransda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ardınca Ümummilli Liderin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub.*

Tədbirdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri Anar Bağırov iştirakçıları səmimi salamlayaraq konfransın işinə uğurlar arzulayıb.

Qeyd edilib ki, ölkəmizdə vəkilliyin müstəqil təsisat kimi formalaşması, dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev tarixin dahi şəxsiyyətlərindən biri kimi daim qadınların hüquqlarının qorunması, onların ictimai həyatda iştirakı, idarəçilikdə ön plana çəkilməsi və digər məsələləri daim diqqətdə saxlayıb. Görkəmli dövlət xadimi qadınları idarəetmə, qərar qəbuletmə, sosial həyatın bütün sahələrində iştirak etməsinə çox böyük əhəmiyyət verib. Dahi şəxsiyyət qadın problemlərinin dövlət səviyyəsində həlli üçün müvafiq fərman və sərəncamlar imzalayıb, 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Ulu Öndərin iştirakı ilə elə həmin ildə Azərbaycan qadınlarının I Qurultayı, 2003-cü ildə isə II Qurultayı keçirilib.

Bildirilib ki, Ümummilli Liderimiz tərəfindən əsası qoyulan dövlət qadın siyasəti Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ölkə başçısının, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti ilə Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da yüksəklərə qalxıb.

Vurğulanıb ki, bu gün Azərbaycanda elə fəaliyyət sahəsi yoxdur ki orada qadınlar təmsil olunmasın. Qadınlar qanunverici, icra, məhkəmə, vəkillik, hüquq-mühafizə, ədliyyə orqanlarında təmsil olunur, məsul vəzifə daşıyırlar. Vəkillər Kollegiyası üzvlərinin bir hissəsini qadınlar təşkil edir. Kollegiyanın Rəyasət Heyətinin müvafiq qərarı ilə qadın vəkillərin şəbəkələnməsi, qadın hüquqşünasların vəkilliyə marağının artırılması, o cümlədən onların fəaliyyətlərində qarşılaşdığı çətinliklə mübarizə məqsədilə Qadın Vəkillər Alyansı yaradılıb. Bu da dövlət tərəfindən qadın vəkillərə göstərilən xüsusi diqqət və qayğının bariz nümunəsidir. Həmçinin ölkə başçısı cənab İlham Əliyev tərəfindən qadın vəkillərin “Tərəqqi” medalı ilə təltif edilməsi, yubileylərinin keçirilməsi yüksək diqqətin göstəricisidir.

Anar Bağırov onu da bildirib ki, vəkillik institutu daim inkişaf edir, qadın vəkillərin cəmiyyətdə rolunun artırılması, vəkillikdə gender balansının təmin edilməsi, Naxçıvanda vəkillik fəaliyyətinin gücləndirilməsi kollegiyanın əsas prioritet məsələlərindəndir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri vəzifələrini müvəqqəti icra edən Vüsal Həsənov, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimov, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət heyətinin üzvü, Qadın Vəkillər Alyansının sədri Dilarə Əfrasiyabova, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Günay Rzayeva, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Azərbaycan Respublikası Vəkillər Kollegiyası Qadın Vəkillər Alyansının üzvü, mediatr Leyla Məmmədova, Bakı şəhər 2 saylı Vəkil Bürosunun müdiri Rəna Məmmədova, Azərbaycan Respublikası Vəkillər Kollegiyası Vəkillərin İntizam Komissiyasının üzvü, Mərkəz Vəkil bürosunun müdiri, Alyansın üzvü Gülşən Salmanova çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən təsdiq olunmuş “Tədbirlər Planı”na uyğun olaraq “Heydər Əliyev İli” çərçivəsində belə bir konfransın təşkili rəmzi məna daşıyır. Ümummilli Lider Heydər Əliyev cəmiyyətdə qadının rolunun yüksəldilməsi məsələsini həmişə diqqət mərkəzində saxlayıb, qadın hüquqlarının qorunmasında mühüm addımlar atılıb, müvafiq qərarlar qəbul olunub. 1998-ci ildə “Azərbaycanda qadınların rolunun artırılması haqqında” müvafiq Sərəncam qadınların dövlət və ictimai həyatda irəli çəkilməsində mühüm rol oynayıb, Azərbaycan Respublikası Konstitusiyasında kişi ilə qadının eyni hüquq və azadlıqları təsbit edilib. Bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən gender siyasəti sahəsində beynəlxalq əməkdaşlıq, beynəlxalq təcrübədən yararlanmaq uğurların əldə olunmasında müstəsna rol oynayıb. Həmçinin dövlət-gender siyasətinin uğurla həyata keçirildiyi muxtar respublikamızda da qadınlar bütün sahələrdə aktiv fəaliyyətlərini davam etdirir, onların məşğulluqlarının təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublika qadınlarının fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir, fəxri adlara, mükafatlara layiq görülürlər.

Konfrans mövzu ətrafında müzakirələrlə davam edib.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Tarixçi-alim Arzu Abdullayev: *“Prezidentin Şuşadan xalqa müraciəti dahi lider Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının arzusunun reallaşan təcəssümüdür”*

Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan xalqa müraciəti dahi şəxsiyyətin zəngin siyasi irsinin, çoxşaxəli fəaliyyətinin müxtəlif aspektlərinin geniş şərhi ilə yanaşı, region ölkələrinin siyasi elitasına verilən mühüm mesajlarla da diqqətləri çəkdi. Müraciətdə dövlət başçısının dediyi: ***“Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik”*** qətiyyəti ilə dahi şəxsiyyətin ideyalarının əbədiyaşarlığını, övladın Ata vəsiyyətinə, Azərbaycan dövlətinin müdrik siyasi yola sədaqətinin dönməzliyini, bir daha bəyan etdisə, ***“Biz müasir texnologiyalara böyük önəm verərək, Azərbaycanda yüksək texnologiyaların inkişafına hesablanmış çox düzgün addımlar atmışıq. Burada həm kadr potensialı məsələləri, eyni zamanda bizim investisiyalarımız, sərmayələrimiz – biz indi kosmik dövlətə çevrildik. Azərbaycanda kosmik sənayenin inkişafının çox böyük potensialı var və gələcək də məhz bu istiqamətdə inkişaf edəcək. Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq”*** fikirləri ilə dövrün reallığı fonunda ölkəmizin gələcək inkişaf prioritetlərinə, hədəflərə aydınlıq gətirdi...

Ölkə başçısının bu tarixi müraciətinin ictimai-siyasi əhəmiyyəti barədə Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarixçi-alim ***Arzu Abdullayev*** in fikirlərini öyrəndik. Arzu müəllim qeyd etdi ki, xalqımız, dövlətimiz üçün əlamətdar olan bir gündə – 10 mayda xalqımızın dahi oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin yüz illik yubileyində cənab Prezidentin Şuşadan xalqa müraciəti dahi lider Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının arzusunun reallaşan təcəssümüdür. Azərbaycana Tarixi Qələbə bəxş edən Müzəffər Prezidentimizin Şuşadan xalqa müraciəti həm də şəhidlərimizin ruhuna böyük ehtiramdır. Ölkə Prezidentinin proqram xarakterli müraciətində biz bir daha müdrik dövlət xadimi Heydər Əliyevin Azərbaycana, onun müstəqilliyinə və əbədiliyinə həsr olunmuş ömür yolunu vərəqləyirik. Ulu Öndərin ən çətin vaxtda qəbul etdiyi qərarlar, göstərdiyi misilsiz xilaskarlıq Azərbaycana əbədi xoşbəxtlik bəxş etdi.

Arzu Abdullayev bildirdi ki, Dahi Azərbaycanlı Heydər Əliyevin yaratdığı milli ideologiyanın nəticəsidir ki, bu gün bütün istiqamətlərdə Azərbaycan uğurlara, nailiyyətlərə imza atır. Cənab Prezidentin dediyi kimi: ***“Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər”.*** Bəli bu gənclər Ulu Öndərin milli ideologiyası işığında, Müzəffər Prezidentimizin rəhbərliyi ilə yetişdi. Cənab Prezident bugünkü müraciəti ilə Azərbaycanın Avrasiyada nəqliyyat mərkəzlərindən birinə çevrildiyini, “Orta Dəhliz” strateji layihəsinin reallaşacağını bir daha dünya ictimaiyyətinə bəyan etdi. Bu gün Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına rəhbərliyimiz ölkə başçısının qeyd etdiyi kimi beynəlxalq mövqelərimizin kifayət qədər güclü olmasından, hüquqi və siyasi bazanı yarada bilməyimizdən irəli gəlir. Bu baxımdan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev müraciəti ilə bir daha dünyaya bəyan etdi ki, Azərbaycanın missiyası həmişə olduğu kimi, sülhə, beynəlxalq hüquqa, regionun davamlı inkişafına hədəflənib. Bu gün Qarabağ, Zəngəzur dirçəlirsə, doğma torpaqlarımızda böyük quruculuq işləri gedirsə, Böyük Qayıdış həyata keçirilirsə, Azərbaycan öz haqq işini, ədaləti bərpa edir. Dünya mədəni irsinə layiqli töhfələr verir.

Arzu müəllim vurğuladı ki, cənab Prezidentin xalqa müraciətində dediyi: ***“...Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur”*** fikirləri bu gün hər bir azərbaycanlının gözləri qarşısında real hadisələrdir. Xalqımız çox yaxşı bilir ki, mürəkkəb və dünyanın çətinliklərlə üz-üzə qaldığı dövrdə Azərbaycan daxili və xarici siyasətdə müstəqil qərarlar qəbul edir, ölkəmizə davamlı inkişaf qazandırır. Bütün bunlar bu gün Ulu Öndər Heydər Əliyev siyasi kursuna sadiq cənab İlham Əliyev kimi liderin Azərbaycana rəhbərlik etməsinin nəticəsidir və artıq Avropa ölkələrinin liderləri də dövlətimizin başçısı cənab İlham Əliyevi dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq etibarlı tərəfdaş kimi qəbul edirlər. Bu da bir daha onu deməyə əsas verir ki, lider cənab İlham Əliyev qlobal təşəbbüsləri ilə Avrasiyanın enerji siyasətinə mühüm töhfələr verir. Avropanın əksər ölkələri isə İlham Əliyev cənablarını müstəqil mövqeyi olan Prezident kimi çox yüksək dəyərləndirirlər. Prezident cənab İlham Əliyev hər zaman milli maraqlarımızı qətiyyətlə təmin edir və uzaqgörən qərarları ilə tarixinin ən qüdrətli Azərbaycanını böyük qürurla, fəxarətlə daha möhtəşəm gələcəyə aparır...

✍ **Nail ƏSGƏROV**

## Çempionat qalibləri ilə görüş



*Xəbər verdiyimiz kimi, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş gömrük orqanları arasında futzal idman növü üzrə keçirilən ənənəvi çempionatda Naxçıvan Baş Gömrük İdarəsinin komandası qalib gələrək birinci pillənin sahibi olub.*

Mayın 11-də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov qalib komandanın üzvləri ilə görüşüb.

Bildirilib ki, ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Ulu Öndərin həyata keçirdiyi idman siyasəti bu sahənin inkişafında, gənc nəslin sağlam ruhda tərbiyə edilməsində mühüm rol oynayıb. Uğurla davam etdirilən bu siyasətin nəticəsidir ki, Azərbaycan dünyanın idman arenalarında öz sözünü deyir.

Görüşdə, həmçinin gömrük əməkdaşları arasında keçirilən futzal idman növünün təbliği, bu sahəyə gənclərin marağının artırılması baxımından əhəmiyyəti vurğulanıb, eləcə də qalib Naxçıvan Baş Gömrük İdarəsinin komandasının mübarizəsi, əzmkarlığı yüksək qiymətləndirilib.

Sonda komitə sədri çempion komandanın üzvlərinə təbrikləri çatdırıb, iştirak edəcəkləri növbəti yarışlarda, həmçinin gələcək iş fəaliyyətlərində uğurlar arzulayıb.

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi*

## Andiçmə mərasimləri keçirilib

*Əlahiddə Ümumqoşun Orduda aprel ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Mərasimdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himnimiz səsləndirilib.*

Əsgərlər Azərbaycan Respublikasının mənafeyini, ərazi bütövlüyünü və müstəqilliyini canları bahasına qoruyacaqlarına and içiblər.

Mərasimdə çıxış edən hərbi qulluqçular və əsgər valideynləri gənclərə xidmətlərində nizam-intizamlı, vicdanlı və cəsarətli olmağı, həvalə edilmiş silah və texnikanı dərindən öyrənməyi, Vətənə olan əsgəri borcunu ləyaqətlə yerinə yetirməyi arzulayıblar.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Məhəmməd Həsənov bildirib ki, müasir Azərbaycan Ordusunun yaradılması və inkişafı bu gün anadan olmasının 100 illiyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə xalqının tələbi ilə Azərbaycan hakimiyyətinə qayıdışından sonra qısa müddətdə güclü nizami ordu formalaşdırıldı və Azərbaycan Ordusu böyük inkişaf yolu keçərək regionun ən güclü qüvvəsinə çevrildi.



Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

General-mayor Məhəmməd Həsənov andiçmə mərasimində iştirak edən gənclərin Heydər Əliyev ideyalarına həmişə sadiq olacaqlarına və Vətən, xalq, dövlət qarşısında əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə inandığını bildirib.

Çıxışların ardından şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub. Bununla da andiçmə mərasimi başa çatıb.

**Kənan CƏLİLOV**

* * *

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsində gömrük orqanları sıralarına yeni qəbul olunmuş gənc əməkdaşların andiçmə mərasimi olub. 30 gənc gömrükçü təntənəli surətdə and içib.

Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanında keçirilən mərasimdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Naxçıvan Baş Gömrük İdarəsinin rəisi Vüqar Əliyev and içən əməkdaşları təbrik edərək seçdikləri bu şərəfli yolda onlara uğurlar arzulayıb.

Sonra Dövlət Bayrağı Muzeyi ilə də tanış olan gənc gömrükçülər Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsini ziyarət edib, önünə güllər düzüb, ehtiramlarını bildiriblər. Gənc gömrükçülər Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ilə də tanış olublar. Muzeyin yaradılması barədə ətraflı məlumat verilərək bildirilib ki, 1999-cu il 10 may tarixdən fəaliyyət göstərən muzeydə 5 mindən çox eksponat mühafizə olunur.

Qeyd edilib ki, zəngin ekspozisiya zalında görkəmli dövlət xadiminin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlar, imzalanan protokol və müqavilələr, məktub və teleqramlar, istifadə etdiyi xatirə əşyaları, kitab, qəzet, jurnallar və digər dəyərli eksponatlar sərgilənir.

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi*

## Uğurlu qadın siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub

Mayın 11-də “Azərbaycanda gender bərabərliyinin təminatçısı Ulu Öndər Heydər Əliyev” mövzusunda keçirilən konfransın iştirakçıları “Şərq qapısı” qəzetinə müsahibə veriblər.



***Dilarə Əfrasiyabova – Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət heyətinin üzvü, Qadın Vəkillər Alyansının sədri:*** – Ümummilli Lider Heydər Əliyevin doğulub boya-başa çatdığı Naxçıvanda olmaqdan, bu konfransda iştirakdan qürur hissi keçirirəm. Konfrans yüksək səviyyədə təşkil edilmişdi. Ulu Öndər bütün fəaliyyəti boyu qadınların cəmiyyətdə iştirakı, hüquq və azadlıqlarının təmini sahəsində Azərbaycan qadınının bütün sahələrdə uğurla təmsil olunmaları üçün mühüm addımlar atıb. Bu gün Azərbaycan qadınının əldə etdiyi böyük uğurların təməlində məhz görkəmli dövlət xadiminin həyata keçirdiyi qadın siyasəti dayanır. Bu siyasət ölkəmizdə, eləcə də muxtar respublikada layiqincə davam etdirilir. Müstəqil dövlətimizin inkişafında qadınlar mühüm rol oynayırlar. Biz Vəkillər Kollegiyasının üzvləri olaraq ölkə başçısının müvafiq Sərəncamına əsasən Bakı şəhərində, regionlarda və müxtəlif sosial ünvanlarda aztəminatlı şəxslərə ödənişsiz hüquqi yardım həyata keçirilməsində iştirak edirik. Məhz may ayının 10-da bu yardımın keçirilməsi üçün Naxçıvan şəhərinin seçilməsi təsadüfi deyildi. Ulu Öndərin 100 illik yubileyi ölkə səviyyəsində, eləcə də onun Vətəni Naxçıvanda geniş şəkildə qeyd olundu. Bu bir neçə gün ərzində Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının köməkliyi ilə aztəminatlı şəxslərə ödənişsiz hüquqi yardım göstərildi. Bu yardımın keçirilməsi davamlıdır və bu məqsədlə əlimizdən gələn köməkliyi göstərəcəyik. Ötən il yaradılan Qadın Vəkil Alyansı bölgələrdə maarifləndirmə işlərinin aparılmasında, ödənişsiz hüquqi yardımlar göstərilməsində mühüm rol oynayır.

Kollegiyanın, eləcə də Alyansın üzvləri olaraq konfransda iştirakdan böyük məmnunluq duyduq. Konfransda gender məsələləri ilə bağlı bir çox problemlərə aydınlıq gətirildi, davamlı olmağını arzu edirəm.

***Lalə Nağıyeva – Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü:*** – “Heydər Əliyev İli” çərçivəsində keçirilən konfransın mövzusu çox aktual idi. Gender bərabərliyi siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, bu sahədə normativ-hüquqi baza yaradılıb. Bu siyasətin davam və inkişaf etdirilməsinin nəticəsidir ki, Azərbaycan qadınları milli dövlət quruculuğunun ən müxtəlif sahələrində böyük xidmətlər göstərir, ictimai-siyasi proseslərin fəal iştirakçıları kimi dövlətimizin, xalqımızın adını dünyada ucaldırlar. Vətənini və millətini sevən, ədalətli, məsuliyyətli olmaları, saflığı və sədaqəti ilə seçilən Azərbaycan qadını cəmiyyətimizin, hamımızın qürurudur.



***Gülşən Salmanova – Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Vəkillərin İntizam Komissiyasının üzvü, Mərkəz Vəkil Bürosunun müdiri:*** – Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Vəkillər Kollegiyası tərəfindən silsilə tədbirlər keçirilib. May ayının 10-da Naxçıvanda 30 nəfərə ödənişsiz hüquqi yardım göstərdik. Bu gün belə bir konfransda iştirakımız, xüsusilə əlamətdardır. Dünya yaranandan bu günə qədər cəmiyyətin inkişafında qadınların rolu əvəzedilməzdir. Nəzərə alsaq ki, qadın, ilk növbədə, anadır, valideyndir, ailədə uşağın tərbiyəsi ilə bilavasitə məşğul olur, o zaman qadının cəmiyyətin inkişafındakı rolu bütün zamanlar üçün aktualdır, vacibdir. Konfrans təşkilatçılarına burada iştirakımıza şərait yaradıldığı üçün minnətdarlığımızı bildiririk. Bundan sonra da Naxçıvanda gender məsələləri ilə bağlı görülən işlərə biz də öz töhfəmizi verməyə çalışacağıq.



Qeyd edim ki, Naxçıvanda olduğumuz müddətdə bir çox tarixi yerləri gəzdik. Batabat yaylağına, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə, “Duzdağ” Fizioterapiya Mərkəzinə ekskursiya etdik. Naxçıvan təsəvvür etdiyimdən daha gözəl bir şəhərdir. Bu gün Naxçıvan inkişaf edir, bu, sevindirici haldır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Orqanik məhsul istehsalı imkanları yerli və xarici investorları Naxçıvana cəlb edir



Ərzaq təhlükəsizliyinin və ekoloji tarazlığın qorunması, orqanik məhsulların yetişdirilməsi və ixrac potensialının yüksəldilməsi, o cümlədən məşğulluğun artırılması və idxaldan asılılığın aradan qaldırılması muxtar respublikamızda həyata keçirilən aqrar islahatların tərkib hissəsidir. Bu tədbirlərin davamı olaraq əkinəyararlı torpaqların, eyni zamanda bitkiçilik və heyvandarlıq təsərrüfatlarının dürüstləşdirilməsi üçün ilkin mərhələdə uçot işlərinə başlanılıb.

Naxçıvanda ekoloji tarazlığın qorunması istiqamətində reallaşdırılan tədbirlər yerli və xarici investorların da diqqətini çəkdiyindən onların burada orqanik məhsul yetişdirilməsinə marağını artırır. Hazırda İsveçrənin "iCsquared GmbH" şirkəti tərəfindən muxtar respublikanın Şərur və Kəngərli rayonlarında yerfıstığı əkini həyata keçirilir. Şirkət əkin apardığı ərazilərdə sudan səmərəli və qənaətlə istifadənin təşkili üçün müasir suvarma sistemlərinin tətbiqi istiqamətində işlərə başlayıb. Yerfıstığı ilə yanaşı, şirkət kartof və qarğıdalı əkinləri də həyata keçirib, növbəti mərhələdə isə qulançar bitkisinin əkininin aparılmasını planlaşdırır.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova Şərur rayonunun Zeyvə kəndi yaxınlığında "Demat" adlanan ərazidə adıçəkilən şirkət tərəfindən həyata keçirilən yerfıstığı əkininin gedişi ilə maraqlanıb, təsərrüfatla məşğul olan kənd sakinləri ilə görüşüb, həmçinin ərazidəki meyvə bağına və taxıl əkini sahələrinə baxış keçirib.

## Naxçıvan Muxtar Respublikasında xarıbülbül bitkisinin sınaq əkinlərinə başlanılıb



Ulu Öndər Heydər Əliyevin 100 illiyi ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da müxtəlif tədbirlərlə qeyd olunur. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi də yubileyə öz töhfələrini verir. Yubiley ərəfəsində muxtar respublikanın florasını zənginləşdirmək məqsədilə gətirilən xarıbülbül bitkisinin Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyində, Naxçıvan Bioresurslar İnstitutunda, Culfa rayonunun uyğun bölgələrində, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Batabat yaylağında elmi-tədqiqat işləri aparılmasına başlanılması bu tədbirlərin davamıdır. Belə ki, sözügedən bitki laboratoriya və sahə təcrübələrinə cəlb olunub.

Sınağa cəlb edilən bitkilər elmi işçilər tərəfindən mütəmadi olaraq müşahidə altında saxlanılacaq, qeydlər aparılacaq və digər tədbirlər görüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## "Naxçıvan" Universiteti və "LANDAU School" Təhsil Kompleksi arasında əməkdaşlıq genişlənir



Bu gün "LANDAU School" Təhsil Kompleksinin Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri – Rəşad Tağıyev, Timur Leznik və Rahul D' Mello "Naxçıvan" Unversitetində olublar.

Qonaqlar əvvəlcə universitetin maddi-texniki bazası və ali təhsil ocağının STEAM komandasının fəaliyyəti ilə tanış olub, sonra tələbələr tərəfindən hazırlanan maraqlı şeir və musiqi nömrələrini izləyiblər.

Universitetlə tanışlıqdan sonra rəhbərliklə görüş olub. Qonaqları salamlayan "Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov universitetin fəaliyyəti, mərkəzləri, beynəlxalq əlaqələri, eləcə də ali təhsil ocağında son dövrlərdə aparılan islahatlar barədə ətraflı məlumat verib. Həmçinin innovasiya sahəsində qabaqcıl şirkətlərlə universitet arasındakı əməkdaşlıqdan danışıb və bunun tələbələr üçün önəminə toxunulub.

Müşahidə Şurasının üzvləri olduğu "LANDAU School" Təhsil Kompleksi haqqında məlumat verib və bir çox istiqamətdə universitetlə əməkdaşlıqda maraqlı olduqlarını ifadə edib, eyni zamanda növbəti illərdə gerçəkləşməsi nəzərdə tutulan layihələr haqqında danışıblar.

Görüşdə "Naxçıvan" Universiteti və "LANDAU School" Təhsil Kompleksi arasında əməkdaşlıq məsələləri müzakirə olunub və əlaqələrin gücləndirilməsi qərara alınıb.

Rektor Anar Kazımov "Naxçıvan" Universiteti üçün yaradılan yeni modeli dəstəklədiyini və yaxın zamanlarda universitetdə bu layihənin həyata keçməsi üçün mühüm addımların atılacağını vurğulayıb.

Qeyd edək ki, "LANDAU School" cəmi 5 il ərzində 3000-dən çox şagirdin təhsil aldığı Azərbaycanın ən böyük təhsil kompleksidir. Azərbaycanın ilk ACT, eləcə də SAT və IELTS imtahan mərkəzi olan "LANDAU School", Elm və Təhsil Nazirliyi tərəfindən verilən lisenziyaya, həmçinin beynəlxalq "Pearson" və "Cambridge" lisenziyalarına sahibdir. "LANDAU School"da 3 bölmə (Azərbaycan, rus, ingilis) üzrə təhsil almaq imkanı mövcuddur. İngilis bölməsində dərslər Britaniya kurikulumu ("Pearson" sistemi; IGCSE və A-Level proqramları) üzrə keçilir, lakin sonda məzunlar yerli də daxil olmaqla, 2 attestat əldə edirlər. Azərbaycan və rus bölmələrində isə dərslər yerli kurikulum əsasında keçilir. Məktəbin hazırda Bakı şəhərində 10 tədris binası fəaliyyət göstərir.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Naxçıvan teatrının 140 illik yubileyi qeyd edilib

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Həsən Kərimov çıxış edərək Naxçıvan teatrının yaranma tarixi və inkişaf mərhələləri, teatrın təşəkkül tapmasında xidməti olan şəxsiyyətlər barəsində məlumat verib.*



Vurğulanıb ki, ötən dövrdə teatrın səhnəsində həm Azərbaycan, həm də dünya klassiklərinin əsərləri uğurla səhnələşdirilib, böyük tamaşaçı rəğbəti qazanıb. Naxçıvan teatrı, həm də bir məktəb missiyasını layaqətlə yerinə yetirərək istedadlı aktyor və rejissorlar nəsli yetişdirib.

Qeyd olunub ki, uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafı ötən əsrin 70-ci illərinə təsadüf edir. Məhz bu dövrdə Ümummilli Lider Heydər Əliyev teatrın, o cümlədən Naxçıvan teatrının inkişafına, yeni yaradıcılıq uğurları əldə etməsinə böyük qayğı ilə yanaşıb, Naxçıvan teatrı da uğurla bəhrələnib.

Teatr fəaliyyətinə göstərilən diqqət və qayğının bu gün də davam etdiyini bildirən Həsən Kərimov diqqətə çatdırıb ki, dövlət başçısı cənab İlham Əliyevin "Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi haqqında" Sərəncamı, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "Milli" status verilməsi haqqında Qərarı bu qədim sənət ocağının milli teatrın inkişafında, o cümlədən mədəni və ictimai sahədə fəaliyyətinə verilən qiymətin bariz ifadəsidir. Ölkə başçısının imzaladığı "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Sərəncamda Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərən incəsənət xadimlərinin də olması bu sahədə çalışanların fəaliyyətinə verilən böyük qiymətin ifadəsi olmaqla yanaşı, həm də muxtar diyarımızda mədəniyyətin inkişafına hesablanmış növbəti addımdır.

Vurğulanıb ki, "Heydər Əliyev İli" çərçivəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Tədbirlər Planına uyğun olaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı Azərbaycan mədəniyyətinin böyük hamisi, Ulu Öndər Heydər Əliyevə həsr edilmiş Aqşin Babayevin "Xilaskar" əsəri əsasında hazırladığı tamaşa ilə öz sənətsevərləri sevindirməyə hazırlaşır.

Həsən Kərimov Naxçıvan teatrının yaranmasının 140 illik yubileyi münasibətilə teatr kollektivini, bu sahədə çalışan əməkdaşları və teatrsevərləri təbrik edib, kollektivə yeni yaradıcılıq uğurları arzulayıb.



Sonra Naxçıvan teatrının yaranmasının 140 illik yubileyi münasibətilə Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsəri əsasında səhnələşdirilən eyniadlı yeni tamaşa nümayiş olunub. Prezident mükafatçısı, gənc rejissor Həcərxanım Məmmədovanın quruluş verdiyi tamaşanın quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur.

Qeyd edək ki, səriştəsiz xan və vəzirinin yarıtmaz əməllərinin gülüş hədəfinə çevrildiyi "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsəri 1894-cü ildən başlayaraq müxtəlif illərdə Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulub.

## Ötən ay muxtar respublika muzeylərinə 468 yeni eksponat daxil olub



*Aprel ayında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən muxtar respublikada müxtəlif mədəni-kütləvi tədbirlər keçirilmiş, müvafiq fərman və sərəncamlardan, qəbul edilmiş Dövlət proqramlarından irəli gələn vəzifələr icra edilmişdir.*

"Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərin davamı olaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Adil Babayevin "Xilaskar" əsəri əsasında hazırlanan eyniadlı tamaşanın məşqləri davam etdirilmiş, Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin ifasında Ulu Öndərin sevdiyi mahnılardan ibarət DVD diskin hazırlanması istiqamətində məşqlər aparılmış, Heydər Əliyev Muzeyi tərəfindən Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş albom-kataloqun hazırlanması işi davam etdirilmişdir.

"Heydər Əliyev İli" çərçivəsində nazirliyin tabe müəssisələrində, muzey və kitabxanalarda, musiqi və incəsənət məktəblərində açıq dərslər, konsert proqramları, dəyirmi masalar, sərgilər də daxil olmaqla, ümumilikdə, 34 tədbir keçirilmişdir.

Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə keçirilən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunmuş tədbir yaddaqalan olmuşdur.

15 aprel – Dünya İncəsənət Günü, Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı müxtəlif tədbirlər, həmçinin Naxçıvan Dövlət Rəsm Qalereyasında rəssam Qəhrəman Tağıyevin "Duyğular və rənglər" adlı fərdi yaradıcılıq sərgisi keçirilmiş, "Kətə" festivalında Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının və Naxçıvan Şəhər Mədəniyyət İdarəsinin "Araz" İnstrumental Ansamblının təqdim etdiyi konsert proqramları festival iştirakçılarında xoş ovqat yaratmışdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ölkəmizdə keçirilən I Uşaq İncəsənət Festivalının ilk mərhələsinə muxtar respublikada aprelin 19-da start verilmişdir. Festivalın birinci mərhələsinin seçimləri davam edir.

Muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəbləri ilə birgə tədbirlərin keçirilməsi, kadr hazırlığı sahəsində iş aparılması diqqətdə saxlanılmış, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun müvafiq ixtisaslarda təhsil alan tələbələri üçün açıq dərslər, kitab müzakirələri təşkil edilmişdir.

Aprel ayında dövlət teatrları tamaşa nümayişi ilə yanaşı, yeni tamaşaların da məşqlərini davam etdirmişdir. Belə ki, Naxçıvan Dövlət Milli Dram Teatrında ay ərzində Ümüd Görkülünün "Cibimizdəki dəlilik" əsəri əsasında hazırlanan tamaşanın premyerası keçirilmiş, ay ərzində Mirzə Fətəli Axundovun "Lənkəran xanının vəzirinin sərgüzəştləri" əsərinin məşqləri aparılmışdır.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı tərəfindən 8 tamaşa, Naxçıvan Dövlət Uşaq Teatrı tərəfindən 4 tamaşa nümayiş etdirilmiş, yeni tamaşaların məşqləri aparılmışdır. Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrı yazıçı-dramaturq Əhməd Orucun "Oğru" musiqili komediyası əsasında hazırladığı eyniadlı tamaşa ilə Ordubad Rayon Mədəniyyət Sarayında və Naxçıvan Dövlət Uşaq Teatrının səhnəsində teatrsevərlərin qarşısına çıxmışdır.

Ötən ay muxtar respublika sakinlərinin, Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqların, rəsmi nümayəndə heyətlərinin muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilməsi diqqət mərkəzində saxlanılmışdır. Ay ərzində muzeyləri 36 min 819 nəfər yerli, 2019 nəfər əcnəbi olmaqla, ümumilikdə, 38 min 838 nəfər tamaşaçı ziyarət etmiş, muzeylərə 468 yeni eksponat daxil olmuşdur.

Muzeylərlə təhsil müəssisələri arasında elektron təhsilin təşkili ilə bağlı iş aparılmış, 2 interaktiv dərs keçilmiş, muzeylərdə müxtəlif seminar-treninqlər, müsabiqələr, sərgilər, görüşlər gerçəkləşmiş, muzeylərin fondlarında təkrar uçotun aparılması və muzey sərvətlərinin elektron məlumat bazasının yaradılması ilə bağlı iş davam etdirilmişdir.

Təhsil və Mədəniyyət nazirliklərinin birgə qrafikinə əsasən tarix və mədəniyyətimizlə bağlı müxtəlif mövzularda 51 açıq dərs və 48 mühazirə keçirilmişdir.

Hesabat dövründə kitabxanaların fəaliyyəti diqqət mərkəzində saxlanılmış, 13 kitab müzakirəsi, yubileylər, əlamətdar və tarixi günlərlə bağlı 39 tədbir keçirilmiş, 62 sərgi qurulmuşdur. Uşaq və yeniyetmələrdə kitaba olan marağın artırılması, onlarda mütaliə mədəniyyətinin formalaşdırılması üçün "Kitabxana Günü", "Mütaliə Günü", "Oxucu Günü" ilə bağlı müxtəlif tərkibli tədbirlər gerçəkləşmiş, sağlamlıq imkanları məhdud 24 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Dövr ərzində Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının Elektron kitabxanasında elektron kataloqda kitabların sayı 35 min 194-ə çatdırılmışdır. Ay ərzində kitabxanalarda oxucu gəlişi 10 min 23, kitab verilişi isə 65 min 232 nüsxə olmuşdur. Dövr ərzində kitabxanalarda, ümumilikdə, 170 tədbir keçirilmişdir.

Ay ərzində Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəz, rayon mədəniyyət sarayları, o cümlədən klub və mədəniyyət evləri tərəfindən müxtəlif tədbirlər keçirilmiş, sərgilər qurulmuşdur.

Naxçıvan Dövlət Film Fondu tərəfindən 5 film nümayiş olunmuş, Ordubad və Şahbuz rayon ümumtəhsil məktəbləri arasında "Sinematoqraf" kinoviktorinasının seçim turları keçirilmişdir.

Nazirliyin *medeniyyet.nakhchivan.az* rəsmi internet səhifəsinin fəaliyyəti diqqətdə saxlanılmış, mütəmadi olaraq məlumatlar yenilənmişdir. Aprel ayı ərzində nazirliyin və tabeli müəssisələrin sosial şəbəkə hesablarında mütəmadi olaraq paylaşımlar edilmişdir.

Aprel ayında nazirliyin tabeliyində olan müəssisələrin əməkdaşlarının ölkədə və muxtar respublikada fəaliyyət göstərən KİV ilə əlaqələri davam etdirilmiş, keçirilən tədbirlərin media orqanlarında işıqlandırılması diqqətdə saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# İlmə-ilmə tarixin izində...

## Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyindən reportaj

*Qarşımdakı mənzərə qeyri-ixtiyari olaraq məni əvvəllərə – qayğısız uşaqlığımın keçdiyi illərə aparır... Xalçaların üzərində həkk olunmuş bir-birindən maraqlı təsvirlər, al-əlvan rəngli iplərdən ərsəyə gəlmiş milli ornamentlər və bunun kimi saymaqla bitib-tükənməyən naxışlar xatırladır mənə o illəri. Bir anlıq düşüncələrim məni dayandığım ünvandan ayırır, sanki tamam fərqli bir hissin eyforiyasına qapılıram. Düşünürəm ki, uşaqlığı kənddə keçən, zəhmətsevər bir ailədə böyüyən hər bir insanın xatirələrini fərqli-fərqli duyğulara kökləyər bu məkan. Çünki bir neçə il əvvəl Naxçıvan torpağında elə bir kənd, qəsəbə, elə bir ev tapılmazdı ki, orada mahir xalçaçı xanımlar olmasın və o evlərin körpələri ana-nənələrinin min zəhmətlə toxuduğu xalçalar üzərində böyüməsin, böyük səbir, təmkin və zövqlə ərsəyə gələn həmin sənət nümunələri evlərimizə xüsusi gözəllik, yaraşıq verməsin. Elə bizim doğma ata-baba ocağımızda olduğu kimi...*





Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Ülviyyə xanımın “Tamaşa etdiyiniz xalça muzeyimizin ən dəyərli eksponatı olmaqla bərabər, həm də Naxçıvanda toxunmuş ən qədim xalça nümunəsidir” sözləri bir anda məni daldığım düşüncələrdən ayırır. Uzun illərdir, bu vəzifədə çalışan Ülviyyə Məmmədova ilə muzey barədə söhbətləşirik. Müsahibim deyir ki, tarixi yaddaşın, etnomədəniyyət salnaməsinin, milli təfəkkür və mənəvi dəyər fəlsəfəsinin ehtiva olunduğu əvəzsiz nümunələrin ideal mühafizəsi vacib şərtlərdən biridir. Diyarımızın bir çox yerlərində fəaliyyət göstərən muzeylər də məhz bu amala xidmət edir. Naxçıvan mədəniyyətinin xalçalar üzərindəki canlı tarixini yaşadan Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyi 1998-ci ilin aprel ayında fəaliyyətə başlayıb. Qala məhəlləsinin Xan dikində – 200 ildən artıq tarixə malik Xan sarayında fəaliyyətə başlayan muzey 2010-cu ildən Ulu Öndər Heydər Əliyevin adını daşıyan prospektdəki yeni binaya köçürülüb. Dövlətimizin diqqəti ilə yaradılan muzeyin maddi-texniki bazası gücləndirilib, eksponat sayı artırılıb.

Ülviyyə xanım bildirir ki, Naxçıvan xalçaları qədim zamanlardan Azərbaycan xalçaçılıq sənətinin ən gözəl nümunələri hesab edilib. Muzeyin fonduna 4000-ə yaxın eksponat toplanıb ki, onlardan 300-dən çoxu ekspozisiyada sərgilənir. Bunlar Naxçıvan qrupuna aid çoxlu sayda xovlu və xovsuz xalça nümunələri, xalçaçılıq məmulatları, məişət əşyalarıdır. Palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalar, süjetli, portret və miniatür xalçalar, o cümlədən müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, xurcun, duz torbası və digər eskponatlardır. Müsahibim sözünə davam edir: – Xalçalar üzərində olan naxışlar 4 qrupa bölünür: həndəsi naxışlar, zoomorf naxışlar (heyvan təsvirləri: quş, maral, qoç, əjdaha), nəbati naxışlar (gül, yarpaq, ağac), antropomorf naxışlar (insan təsvirləri). Bu növ milli naxışların hər birinin xalçalar üzərindəki ahəngdar təsviri xalqımızın adət-ənənələrinə, mənsubiyyətinə bağlılığının bariz nümunəsidir.

Həmsöhbətimin sözlərinə görə, Naxçıvanın zəngin təbii sərvətləri, ecazkar təbiəti, flora və faunası ta qədim zamanlardan xalçaçılığın təşəkkülünə rəvac verib. Tarix sübut edir ki, yurdumuzun bütün rayonlarında, demək olar ki, hər evdə ən azı bir və ya bir neçə xalça toxunub. Çətin və məsuliyyətli proses olan xalçaçılıq bu gün də yaşadılan ənənədir. Bunun ölkəmizdə qorunub saxlanılması da təsadüfi deyil. Çünki Azərbaycanın qədim və əsrarəngiz incəsənət dünyası nəinki ölkə hüdudlarında, hətta dünyanın, Yaxın Şərqin və Qərbin diqqət mərkəzində olub. Bu səbəbdən də ölkəmizdə belə incə bir dəyərin qorunması əsas prioritet istiqamətlərdən hesab edilir.

Müsahibimdən öyrənirəm ki, xalçanın tam şəkildə ərsəyə gətirilməsi bir neçə mürəkkəb prosesdən keçir. Xalçanın toxunmasından sonra ikinci ən məsuliyyətli və zərif zövq tələb edən iş xalçada istifadə olunacaq boyaların seçilməsi, toxunmada istifadə ediləcək yun iplərə müxtəlif rənglərin verilməsidir. Bu çətin iş ip boyama, boyaqçılıq və digər adlarla tarixdə qeyd olunub.

Müsahibim deyir: – Naxçıvan və Ordubadın boyaqxanaları digər regionlarımızla müqayisədə daha çox tanınıb. Xalçaçı ustalar ayrı-ayrı bitkilərdən, gül-çiçəkdən, ağac qabıqlarından yun ipləri boyamaq üçün müxtəlif rənglər alırmışlar. Məsələn, sarı və sarımtıl rənglər sarıçöp, sarıgül və əncir yarpaqlarından, qırmızı və çəhrayı rənglər boyaqotundan (marena), qırmız böcəyindən (koşenil), noxudu və şəkəri rənglər soğan və alma qabığından, palıd rəngi qoz qabığından, sürməyi və göy rənglər uzaq ölkələrdən gətirilən təbii indiqodan alınırmış. Peşəkar boyaqçılar təbii rənglərin imkanlarını artırmaq məqsədilə onların tərkibinə zəy, duz kimi bərkidici maddələr əlavə edirdilər. Bir tarixi faktı qeyd etmək yerinə düşər ki, X əsrin ikinci yarısına aid “Hüdud əl-Aləm” əsərində Naxçıvanın zili və xalçaları barədə ətraflı məlumata rast gəlmək olur. Təsadüfi deyil ki, “Azər-İlmə” xalçaçılıq şirkətinin əməkdaşlarının apardıqları tədqiqat nəticəsində Naxçıvanın 68 kəndindən 254 peşəkar toxucu haqqında informasiya əldə edilib. Bu da yurdumuzun Azərbaycan incəsənət məktəbinə necə misilsiz töhfələr verdiyinin bariz nümunəsidir.

Həmsöhbətimin verdiyi məlumatlara görə təşəkkür edib sağollaşıram, maraqlı keçən söhbətin ardından muzeyin ekspozisiya zalında xalçaların sirli-sehrli aləminə qonaq olmaq üçün ziyarətə başlayıram. Düşünürəm ki, bu məkan yalnız tanımadığımız, adlarını belə bilmədiyimiz zəhmətsevərin, incəsənət adamının ərsəyə gətirdiyi xalçaların, kilimlərin və digər toxuculuq məmulatlarının cəm olduğu bir ünvan deyil. Bura həm də ilmə-ilmə tariximizin yaddaşına həkk olunan proseslərin, ayların, illərin, qərinələrin, hətta əsrlərin canlı şahididir. Bu sənət əsərlərinin dilləri olsa, nədən danışmazlar, nə söyləməzlər ki, bizə... Qarşısında dayandığım sadə təsvirli, zərif yun iplərdən toxunmuş xalçanın nə az, nə çox 200-dən artıq yaşı var. XIX əsr Naxçıvan mədəniyyətinin şahidi, rus-Qacar müharibəsinin müasiri, Ağa Məhəmməd şah Qacarı taxtda, Kalbalı xan Kəngərlini qundaqda görən bu sənət əsəri danışır mənə ötənlərdən, keçənlərdən, Naxçıvanın, habelə ölkəmizin qədim, çoxəsrlik mədəniyyətindən, zəngin incəsənətindən... Xalçanın toxunduğu il Vətənimizin çalxantılı, qanlı-qadalı dövrlərinə təsadüf edir. XIX əsr Azərbaycan tarixi iqtisadi, mədəni, maarif və digər cəhətlərdən böyük ziddiyyətlərə şahidlik edirdi. Dövlətimizin parçalanaraq xırda xanlıqlara bölünməsi nəticəsində XIX əsrin ilk onilliklərində kənd təsərrüfatı, ticarət, sənətkarlıq, xırda sənaye tənəzzül etməyə başlamışdı. Xanlıqlar arasında ciddi mübarizə və odlu-alovlu ziddiyyətlər gedirdi. Sözsüz ki, bu cür daxili çəkişmələr Vətənimizin sərvətlərini tar-mar etmək niyyətində olan yadelli qüvvələrin diqqətindən yayınmırdı. Qonşu dövlətlər arasında Rusiya ictimai vəziyyətinin qarışıqlığı, demokratiya və inqilabi ruhu ilə digər dövlətlərdən fərqlənirdi. Rusiya inkişafda olan Qərbi Avropa ilə daha sıx bağlı olduğundan onun mədəniyyətində, sosial həyatında baş verən dəyişiklik və inkişaf özünü daha çox göstərirdi. Uzun və gərgin keçən bu illərin ardınca ölkəmizin bir çox ictimai-sosial həyatında dönüş yaranmağa başladı. Gülüstan və Türkmənçay müqavilələrinin imzalanması isə bu dönüş tarixinin kulminasiya nöqtəsi oldu, Vətənimiz çar Rusiyası və Qacarlar dövləti arasında bölünüb parçalandı, azadlığı, müstəqilliyi əlindən alındı...





İlmələrin əsrlərə sığmayan tarixi yaşı məni Azərbaycan tarixinin daha bir mərhələsinə aparır... Müxtəlif nəbati naxışlarla bəzədilmiş xovlu xalça üzərindəki balaca təqdimat lövhəsi diqqətimi çəkir: “1900-cü il, Ordubad rayonunun Gənzə kəndi”. Bu tarixdən etibarən dünyanın, eləcə də Vətənimizin həyatında böyük dəyişikliklər baş verməyə başladı. Əsrin əvvəllərində milli maarifpərvər qüvvələrin mədəni inkişaf uğrundakı mübariz fəaliyyətləri, həyata keçirdikləri tədbirlər, mədəniyyət və incəsənətin ayrı-ayrı sahələrinin təşəkkülü, Azərbaycanda kulturoloji fikrin inkişafına çox ciddi təkan verdi. Azərbaycan xalqının görkəmli ziyalıları Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Əzim Əzimzadə, Mir Möhsün Nəvvab və onlarla digərləri öz müqəddəs niyyət və arzularında yekdil idilər: ölkənin mədəniyyətini yüksəltmək, kölə vəziyyətində olan savadsızları təlim-tərbiyə cəlb etmək, xalqın nümayəndələri içərisindən qabiliyyətli və istedadlı şəxsləri üzə çıxarmaq, Azərbaycanın maddi və mənəvi sərvətlərini bütün bəşəriyyətə tanıtmaq. Sevindirici haldır ki, maarifpərvər ziyalılarımızın atdığı heç bir addım əbəs yerə getmədi, xalqımızın, Vətənimizin tarixin sınağına çəkildiyi anlarda əlimizdən tutdu, bizə düzgün əqidə, sağlam təfəkkür və yurdsevər həyat tərzi aşıladı. Bu ali dəyərlər bu gün də, gələcəkdə də tariximizdə şərəf nöqtəsi kimi xatırlanacaq, gələcək nəsillərin hafizəsinə həkk olunacaq.

Muzeyin zəngin eksponatlarına, müxtəlif toxuculuq məmulatlarına tamaşa edə-edə tarixə səyahət etməyi də unutmuram...Maraqlı gəzinti məni muzeyin adını daşıdığı, dəyərli professor Kamil Əliyevin xatirəsinə həsr olunmuş guşəyə çatdırır. Muzeyin sözügedən hissəsində böyük xalçaçı rəssam Kamil Əliyevin ərsəyə gətirdiyi sənət əsərlərindən ibarət nümunələr sərgilənib. Həmin əsərlərə tamaşa etdikdə anlayırsan ki, Kamil Əliyev bütün ömrünü xalqımızın mədəniyyət tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf etmiş dahi sənətkardır. Sənət əsərlərindən aydın olur ki, o, fitri istedada malik rəssam kimi milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaratmağı bacarıb, həmçinin Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirməyi peşə amalı kimi dəyərləndirib. Onun əsərlərindəki kompozisiya özünəməxsusluğu, rəng ahəngdarlığı və süjet əlvanlığı rəssamın Azərbaycan xalçaçılıq məktəbinin xüsusiyyətlərini necə qoruyub yaşatmasının ən parlaq təzahürüdür. Bununla yanaşı, Kamil Əliyevin qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları incəsənətimizin qızıl fondunun qiymətli nümunələrindəndir. Bunun nəticəsidir ki, dəyərli xalçaçı rəssamımızın əsərləri dəfələrlə dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında nümayiş etdirilib. Professor Kamil Əliyevin adını daşıyan Naxçıvan Dövlət Xalça Muzeyində onun əl işlərindən ibarət guşəyə baxanda bunu bütün reallığı ilə dərk edə bilirik.

Bu gün qürurla deyə bilərik ki, dövlətimiz tərəfindən xalçaçılığın inkişafına xüsusi diqqət və qayğı göstərilir. Bu istiqamətdə atılan addım kimi “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, ölkə başçısının 2018-ci il 28 fevral tarixli Sərəncamı ilə imzalanmış və icrası uğurla başa çatmış “Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq olunmuşdur. Bununla yanaşı, 25 illik yubileyini qeyd etdiyimiz Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyinə dövlət dəstəyinin artırılması, muzeyin imkanlarının genişləndirilməsi, maddi-texniki bazasının gücləndirilməsi diyarımızda mövcud olan zəngin incəsənətin, köklü mədəniyyətin ali təzahürüdür. Həmçinin dahi siyasi xadim Ümummilli Lider Heydər Əliyevin doğum günündə Azərbaycan Mədəniyyətinin Paytaxtı, Qarabağın incisi sayılan Şuşa şəhərində Milli Xalça Muzeyinin yeni filialının açılması, ölkə başçısı cənab İlham Əliyevin ailə üzvləri ilə birgə həmin tədbirdə iştirak etməsi söylədiklərimin əyani sübutudur. Sadalananlar dövlətimizin xalçaçılıq sənətinə olan diqqət və qayğısının nəticəsi, xalçaçılığın həm tarixi-mədəni, həm də sosial-iqtisadi faktor kimi yüksək qiymətləndirilməsinin önəmli nümunəsidir. Tam əminliklə deyə bilərik ki, YUNESKO-nun Ümumdünya Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilən Azərbaycan xalçaçılıq sənəti xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, yaşadılması, habelə bu dəyəri günümüzdən gələcəyimizə aparan, oradan da tarixin yaddaşına həkk edən ali addım kimi həmişəyaşardır, əbədidir...

✍ **Məcid RƏŞADƏTOĞLU**

### Bildiriş

**Naxçıvan Dövlət Universiteti**

2022-2023-cü tədris ilinin yaz imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) yaz imtahan sessiyası 1 iyun 2023-cü il tarixdən başlayır və 20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 327